


HADİSƏLƏR KONTEKSTİNDƏ

*"Prezident Trampla imzaladığımız memorandumda enerji əməkdaşlığı xüsusi yer tutur. Beləliklə, biz enerji deyəndə neft, qaz, potensial olaraq bərpaolunan enerji mənbələrini nəzərdə tuturuq. Bu gün NATO-nun 10 üzvünü, ABŞ-ın 10 müttəfiqini təbii qazla təchiz edirik. Biz boru kəməri ilə qaz tədarükü üzrə 14 ölkəni əhatə edirik. Deməli, bu baxımdan, - qaz kəmərini nəzərdə tuturam, - Azərbaycan dünyanın qabaqcıl ölkələrindən biridir. Belə ki, 10 NATO, 10 Aİ üzvü bizdən qaz alır. Biz bu yaxınlarda Suriyaya təbii qaz tədarük etməyə başlamışıq. Beləliklə, biz artıq Yaxın Şərq regionuna daxil olmuşuq və coğrafiyamızı Avropada, eləcə də Yaxın Şərqdə genişləndirəcəyik. Bu, əslində, enerji sahəsində gələcək gündəliyimizin yalnız bir hissəsidir". Bu fikirləri Azərbaycan Prezidenti İlham Əliyev Vaşinqtonda Azərbaycan mətbuatına müsahibəsində deyib. Dövlətimizin başçısı Azərbaycanın qaz təchizatı baxımından dünyada lider ölkələrdən biri olduğunu bildirərək qeyd edib ki, Amerika Birləşmiş Ştatları ilə süni zəka, rəqəmsal transformasiya üzrə yaxından işləmək planlarımız var. Səfərim zamanı artıq komandamızın üzvləri ilə Amerika şirkətləri arasında ilkin müzakirələr baş tutub. Yeni görüşlər də olacaq.*

# Gələcək gündəliyimiz:

## Enerji təminatçısından regional güc mərkəzinə






Azərbaycan-ABŞ münasibətləri strateji əməkdaşlıq və qarşılıqlı maraqlar üzərində qurulub. İki ölkə arasındakı əlaqələr enerji təhlükəsizliyi, regional sabitlik, iqtisadi inkişaf, demokratik institutların möhkəmləndirilməsi və beynəlxalq təhlükəsizlik sahələrini əhatə edir. Zamanla bu münasibətlər ikitərəfli səviyyədən qlobal miqyasda əməkdaşlıq platformasına keçib. Ümummilli Lider Heydər Əliyev xalqın təkidi ilə hakimiyyətə gəldikdən sonra Azərbaycan-Amerika münasibətlərində irəliləyiş özünü göstərdi, balanslaşdırılmış xarici siyasət əlaqələrə müsbət təsir etdi. 1994-cü il sentyabrın 20-də "Əsrin müqaviləsi"ndə Rusiya və İranın maneə cəhdinə baxmayaraq, ABŞ şirkətləri də iştirak etdi. Ulu Öndərin 1997-ci ildə ABŞ-a səfəri ikitərəfli əlaqələrin inkişafında xüsusi yer tutdu. Səfər çərçivəsində "Chevron", "Exxon", "Mobil" neft şirkətləri ilə SOCAR arasında Abşeron, Naxçıvan və Oğuz neft yataqlarının istismarı ilə bağlı müqavilələr imzalandı. Əsası xalqımızın ümummilli lideri Heydər Əliyev tərəfindən qoyulan və Prezident İlham Əliyevin uğurla davam etdirdiyi bu strategiyada artıq yeni zaman - Azərbaycanın zəngin təbii qaz ehtiyatlarının dünya bazarlarına çıxarılması dövrü gəlib çatıb. Bu gün Azərbaycanın nefti və qazı 7 kəmər vasitəsilə müxtəlif ölkələrə ixrac olunur. 2020-ci ilin son günündə Azərbaycandan Avropaya qaz nəqli başlanıb. Həmin vaxtdan bəri Cənub Qaz Dəhlizinin sonuncu seqmenti olan Trans-Adriatik Qaz Boru Kəmərindən (TAP) Avropaya kommersiya məqsədli qaz nəql edilir. Bu kəmərin işə düşməsi ilə Azərbaycan tarixdə ilk dəfə öz təbii qazını Avropa bazarına birbaşa borularla çıxarmağa nail olub. Boru kəməri vasitəsilə 14 ölkəyə qaz çatdırılır. Bu baxımdan, Azərbaycan dünyada aparıcı ölkələrdən biridir. Yaxınlarda Suriyaya təbii qaz ixracına başlanılıb və Avropada, eləcə də Yaxın Şərqdə coğrafiyamız genişlənir. 2006-cı ildə dövlətimizin başçısı ABŞ-a səfər edərək Azərbaycan-Amerika münasibətlərinin sürətlə inkişaf etdiyini, ölkəmizdə və regionda irimiqyaslı enerji layihələrinin həyata keçməsində bu ölkənin dəstəyini xüsusi vurğulamışdı. Qeyd etmişdi ki, Azərbaycan enerji təhlükəsizliyi məsələsi ilə bağlı Amerika ilə əməkdaşlıq etməkdə maraqlıdır. Azərbaycan həm enerji keçidi, həm də enerji təhlükəsizliyini intensiv şəkildə reallaşdıran ölkələrdən biridir. Donald Trampın ikinci prezidentliyi dövründə Amerika Birləşmiş Ştatları ilə Azərbaycan arasında bu istiqamətində əməkdaşlıq daha da güclənəcək. Azərbaycanın regional təhlükəsizliyə və xüsusən də enerji təhlükəsizliyinə töhfəsi inkişaf etmiş ölkələr tərəfindən xüsusi qiymətləndirilir.

Hazırda rəsmi Bakı ilə Vaşinqton arasında daha intensiv və konstruktiv dialoq mövcuddur ki, bu da strateji tərəfdaşlığın yeni mərhələyə keçməsinə imkan yaradır. Bu tərəfdaşlığın əsas sütunları enerji, təhlükəsizlik və rəqəmsal iqtisadiyyat sahələrini əhatə edir. Azərbaycan zəngin enerji resurslarına malikdir və regionun vacib tranzit ölkəsidir. ABŞ isə dünya iqtisadiyyatının və qlobal təhlükəsizlik sisteminin mühüm aktoru kimi bu imkanlardan səmərəli istifadə etməyə çalışır. Enerji sahəsində əməkdaşlıq yalnız iqtisadi əlaqələr deyil, həm də regional sabitlik və geosiyasi inkişaf üçün önəmli amildir. Eyni zamanda, rəqəmsal iqtisadiyyat və texnologiyalar sahəsində qarşılıqlı maraq artmaqda, innovativ əməkdaşlıq imkanları gündəmə gəlməkdədir.

Avqustun 8-də Prezident İlham Əliyevin ABŞ-a rəsmi səfəri Cənubi Qafqazda və daha geniş geosiyasi məkanda mühüm dönüş nöqtəsi oldu. Bu hadisə Azərbaycan-Amerika münasibətlərinin strateji tərəfdaşlıq səviyyəsinə yüksəlməsi və uzunmüddətli münaqişənin diplomatik yolla həllinə doğru atılan əhəmiyyətli addım kimi qiymətləndirilir. Vaşinqton səfəri Azərbaycan və ABŞ arasında strateji tərəfdaşlığın yeni istiqamətlərini müəyyənləşdirir. Azərbaycanın etibarlı enerji tərəfdaşı statusu, Avropanın enerji təhlükəsizliyində oynadığı mühüm rol və "yaşıl enerji" layihələri, ABŞ ilə strateji gündəliyin prioritetləri sırasında yer alır, iqtisadiyyatın şaxələndirilməsi, rəqəmsal texnologiyaların tətbiqi və müdafiə sənayesi üzrə qarşılıqlı əməkdaşlıq perspektivləri müəyyənləşdirir. Bu, Azərbaycan-Amerika münasibətlərini qlobal miqyasda qarşılıqlı faydalı tərəfdaşlıq modelinə çevirir. Səfər Azərbaycanı yalnız regional oyunçu kimi deyil, eyni zamanda qlobal enerji və təhlükəsizlik sisteminin mühüm aktoru kimi təqdim edir.

Hazırda dünya enerji bazarlarında dəyişkən ab-havanın müşahidə olunduğu yeni düzəndə Azərbaycanla ABŞ-nin siyasi müstəvidə mövqeləri üst-üstə düşür. Azərbaycan Prezidenti İlham Əliyevin Vaşinqtona işgüzar səfəri və dövlət başçısı Donald Trampla təkbətək görüşü ölkələrimiz arasında münasibətlərin yeni mərhələyə qədəm qoymasına dəlalət edir. Prezident İlham Əliyevin və ABŞ Prezidentinin xüsusi elçisi Stiv Uitkoffun iştirakı ilə Vaşinqtonda SOCAR-la Amerikanın enerji nəhəngi "ExxonMobil" şirkəti arasında "Əməkdaşlıq haqqında Memorandum" imzalandı. Qeyd edək ki, bu ilin iyununda "Bakı Enerji Həftəsi" çərçivəsində SOCAR artıq "Exxonmobil" şirkəti ilə Azərbaycanın mərkəzi və qərb bölgələrində geoloji kəşfiyyat işlərinin aparlmasına dair Anlaşma Memorandumu imzalamışdı. Həmin sənəd Amerika şirkətinin hazırkı dövr üçün əldə olan ən müasir texnoloji həllərdən istifadə etməklə Azərbaycan quru hissəsində daha dərin qatlarda karbohidrogen ehtiyatların aşkarlanması kimi mühüm bir məsələnin həllinə yönəlib. Şirkət arasında imzalanan sənəd isə münasibətlərin daha da dərinləşməsi, əməkdaşlığın daha geniş spektrdə həyata keçirilməsi üçün atılan addımdır. "ExxonMobil" hazırda Azərbaycanın enerji sektorunda iki mühüm layihənin iştirakçısıdır. Belə ki, Amerikanın neft-qaz nəhəngi Azərbaycanın ən iri neft bloku -"Azəri-Çıraq-Günəşli"də 6,79 faiz paya, Azərbaycanın əsas ixrac boru kəməri olan Bakı-Tbilisi-Ceyhan layihəsində isə 2,50 faiz paya malikdir.

SOCAR və "ExxonMobil" arasında Vaşinqtonda imzalanan Əməkdaşlıq haqqında Memorandum - sadəcə texniki razılaşma deyil, əslində üçqat strateji nəticə doğuran sənəddir. "ExxonMobil" kimi qlobal enerji nəhəngi ilə əməkdaşlıq Azərbaycanın neft və qaz sektoruna yeni texnologiyalar, təhlükəsiz hasilat sistemləri və ekoloji standartlar gətirə bilər. Bu memorandum uzunmüddətli investisiyaların əsasını qoyur. "ExxonMobil"in iştirakı digər Amerika və Qərb şirkətləri üçün də Azərbaycana marağı artıracaq. Ölkəmiz öz enerji resurslarını daha səmərəli və diversifikasiya olunmuş yollarla bazara çıxarmaq imkanı qazanacaq. Enerji əməkdaşlığı vasitəsilə ikitərəfli siyasi dialoq daha da dərinləşir. Azərbaycan ABŞ siyasətində mühüm enerji tərəfdaşı kimi təsdiqlənir. Bu əməkdaşlıq Avropaya və dünya bazarına alternativ enerji tədarükündə Azərbaycanın rolunu artırır. Bu isə Cənubi Qafqazda enerji balansını dəyişir. Azərbaycanın "ExxonMobil" ilə əməkdaşlığı, xüsusilə Avropanın enerji təhlükəsizliyi baxımından əhəmiyyətlidir. Bu, həm də Azərbaycanın Transxəzər və TANAP kimi layihələrdəki mövqeyini gücləndirir. Azərbaycan enerji siyasətini artıq yalnız ixrac vasitəsi kimi deyil, diplomatik və geosiyasi təsir aləti kimi istifadə edir. SOCAR bu mənada artıq yalnız milli şirkət deyil, qlobal oyunçudur. Prezident İlham Əliyevin Vaşinqton səfəri və "ExxonMobil"la əməkdaşlıq Azərbaycanı "enerji təminatçısı"ndan "regional güc mərkəzi"nə çevirmək istiqamətində əhəmiyyətli addımdır. Bu, Qafqaz regionunun inkişafına, sabitliyinə və beynəlxalq inteqrasiyasına ciddi töhfə verəcək.

Cari il avqust ayının 8-də Azərbaycan Prezidenti cənab İlham Əliyev Ağ Evdə mətbuata bəyanatla çıxış etmiş, sonra Azərbaycanın media nümayəndələrinə müsahibə vermişdir. Möhtərəm Prezident cənab İlham Əliyev bəyanatında bildirmişdir ki, bu gün biz Azərbaycan ilə ABŞ arasında ikitərəfli, dövlətlərarası münasibətlərimizdə yeni tarix yazırıq. Biz strateji tərəfdaşlıq yoluna qədəm qoyuruq və bir neçə ay ərzində Strateji Tərəfdaşlıq Xartiyası işlənib hazırlanacaq. Bu isə Azərbaycan üçün tarixi nailiyyətdir. Çünki dünyanın ən qüdrətli ölkəsi ilə strateji tərəfdaşlıq münasibətlərinə malik olmaq həm fürsətdir, həm də məsuliyyət. Bu strateji tərəfdaşlıq formatı bir çox vacib sahələri əhatə edir - qarşılıqlı sərmayə, ticarət, enerji, bağlılıq, tranzit, süni intellekt, müdafiə sahəsində kontraktlar və terrorizmlə mübarizə. Bu günədək bu sahələrdə əməkdaşlığımız olub və ümid edirəm ki, gələcəkdə də fəal əməkdaşlığımız olacaqdır.

Bu gün Azərbaycanın çoxtərəfli və balanslaşdırılmış xarici siyasət kursunda dünyanın ən qüdrətli ölkələrindən olan ABŞ-la münasibətlərinin möhkəmləndirilməsi xüsusi prioritet təşkil edir. Beynəlxalq birliyin ən fəal üzvlərindən olan Azərbaycan regionda və dünyada mehriban qonşuluq siyasəti yürüdərək böyük dövlətlərlə, nüfuzlu beynəlxalq təşkilatlarla qarşılıqlı faydalı əməkdaşlığı daha da möhkəmləndirir. Prezidentlər İlham Əliyev və Donald Tramp arasında qarşılıqlı anlaşma və əməkdaşlıq iki ölkə arasında strateji tərəfdaşlıq üçün güclü zəmin yaradır. Enerji təhlükəsizliyi, regional sabitlik, iqtisadi əməkdaşlıq və terrorizmə qarşı mübarizə sahələrində ortaq maraqlar liderlər səviyyəsində aparılan dialoqun səmərəliliyini və gələcəyə yönəlmiş mahiyyətini bir daha təsdiqləyir. Donald Tramp hələ birinci prezidentliyi dövründə Azərbaycanla dostluq və əməkdaşlığın möhkəmlənməsinə xüsusi diqqət yetirib. O dövrdə formalaşan qarşılıqlı etimad bu gün ikitərəfli əlaqələrin yeni mərhələyə keçidi üçün əsaslı zəmindir.

Azərbaycan Prezidentinin ABŞ-a səfəri iki ölkə arasındakı əməkdaşlığın daha da möhkəmləndirilməsinə töhfə verəcək. Son illərdə Azərbaycan ilə Birləşmiş Ştatlar arasında münasibətlər ənənəvi diplomatik əməkdaşlıq çərçivəsində inkişaf etməklə yanaşı, eyni zamanda, keyfiyyətcə yeni - strateji müttəfiqlik səviyyəsinə yüksəlməkdədir. Tarixi səfər də məhz bu yüksələn dinamikanın davamı və yeni strateji mərhələnin əsasını qoya biləcək mühüm siyasi addım kimi qiymətləndirilir. Azərbaycan Prezidentinin çıxışlarının birində bildirdiyi kimi: "Qarşılıqlı etimad və dəstəyə əsaslanan Azərbaycan-ABŞ tərəfdaşlığının inkişafı və möhkəmləndirilməsi yolunda birgə səylərimizi dövlətlərimizin maraqları və xalqlarımızın mənafeyi naminə bundan sonra da ardıcıl şəkildə davam etdirəcəyik".

**Mustafa KAMAL,**
**"Respublika".**